www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1839) 15 iyul 2026-cı il



## Azərbaycan Tibb Universitetində “Məzun Günü” təntənə ilə qeyd olunub

96 illik tarixə malik qocaman təhsil ocağı bu il 1270 məzununu müstəqil həyata yola salır

səh. 2-3

### Nümayəndə heyətimiz Ankara Universitetində işgüzar səfərdə olub

səh. 6

### Əməkdaşımız üç beynəlxalq sertifikasiya proqramını başa vurub

səh. 5

### Ağır dərəcəli onurğa əyriliyi cərrahi yolla aradan qaldırılıb

səh. 7



### Universitetimiz beynəlxalq əlaqələrini genişləndirir

Növbəti əməkdaşlıq memorandumu Türkiyənin Atlas Universiteti ilə imzalanıb

səh. 4

### Rezidentura və magistratura təhsilində mühüm yeniliklər

*İlhamə Mustafayeva: Səhiyyənin müxtəlif sahələri üzrə daha dərin bilik və bacarıqlara malik mütəxəssislər hazırlanacaq*

səh. 6

### Yarışlarda fərqlənən tələbələr və məşqçilər təltif olunub

*Bəzi növlər üzrə medal sayında hətta idman təhsil müəssisələrini üstələyirik*

səh. 5



### Böyük Elmi Şuranın 2025/2026 tədris ilində sonuncu iclası keçirilib

Buraxılış kurslarında yekun qiymətləndirmə imtahanlarının nəticələri barədə hesabatlar təqdim olunub

səh. 4

# Azərbaycan Tibb Universitetində

## 96 illik tarixə malik qocaman təhsil ocağı bu il 1270









**Azərbaycan Tibb Universitetində 2026-cı il məzunlarının "Məzun Günü" münasibətilə təntənəli mərasim keçirilib.**
**"Bulvar Hotel"də tanınmış teleaparıcı Saleh Bağırovun aparıcılığı ilə təşkil olunmuş tədbirdə səhiyyə naziri Teymur Musayev, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov, ATU-nun rektoru, professor Gəray Gəraybəyli, Milli Məclisin deputatları, alimlər, səhiyyə işçiləri, universitetin professor-müəllim heyəti, tələbə və valideynlər iştirak ediblər.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimiz uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

### Səhiyyənin tərəqqisinə xidmət edəcək insanların sırası genişlənir

Tədbirdə çıxış edən səhiyyə naziri Teymur Musayev məzunları təbrik edərək bu gün onların yeni mərhələyə qədəm qoyduqlarını, həkimliyin yalnız peşə deyil, yüksək məsuliyyət, vicdan və mərhəmət tələb edən müqəddəs missiya olduğunu vurğulayıb. O, Azərbaycan Tibb Universitetinin ölkənin səhiyyə sistemi üçün uzun illərdir yüksək ixtisaslı kadrlar hazırladığını, universitetdə həyata keçirilən yeniliklərin, o cümlədən Data Analitika və Süni İntellekt Laboratoriyasının yaradılmasının müasir tibb təhsilinin inkişafına xidmət etdiyini bildirib: "Səhiyyədə aparılan genişmiqyaslı islahatlar tibb təhsilinin qarşısında yeni hədəflər qoyur. Süni intellekt, fərdiləşdirilmiş tibb və innovativ müalicə üsulları səhiyyənin simasını dəyişir. Sabahın həkimi yalnız yüksək nəzəri biliklərə malik deyil, dəyişən dünyaya uyğunlaşan, öyrənməyi həyat tərzinə çevirən, yeni texnologiyaları mənimsəyən mütəxəssis olmalıdır. Bu böyük missiyanın davamçıları da sizlərsiniz. İnanıram ki, siz bu məsuliyyəti dərindən dərk edəcək və gələcək fəaliyyətinizdə etimadı doğruldacaqsınız. Səhiyyəmizin sizə - Azərbaycanın sağlam gələcəyi naminə şərəfli missiyaya qoşulacaq yeni gənclərə, yaradıcı qüvvələrə ehtiyacı var. Təbabətimizin



inkişafı əhəmiyyətli dərəcədə məhz bugünkü tələbələrdən və məzunlardan asılıdır. Ona görə deyə bilərik ki, bu gün bütün səhiyyəmiz üçün əlamətdar gündür. Onun tərəqqisi naminə çalışacaq insanların sıraları genişlənir".
Azərbaycan səhiyyəsinin yüksəlişi, inkişafı ilə bağlı vacib məqamları, bu sahədə əldə edilmiş nailiyyətlərin məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu xatırladan nazir, Prezident İlham Əliyevin rəhbərliyi altında səhiyyə sisteminin yeni və uğurlu inkişaf mərhələsinə qədəm qoyduğunu, ölkə rəhbərliyi tərəfindən səhiyyə və tibb təhsilinə daim böyük diqqət və qayğı ilə yanaşıldığını, Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyə sahəsində müstəsna xidmətlərini də diqqətə çatdırıb.
Təbabət elminə və tibb təhsilinə böyük töhfələr vermiş görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva məktəbinin davamçılarının illərdir yeni həkim kadrlar və alimlərin hazırlanması sahəsindəki böyük xidmətlərindən də söz açan nazir, məzunlara daim öz üzərlərində çalışmağı, müasir texnologiyaları mənimsəməyi və peşə etikasına sadiq qalmağı tövsiyə edib: "Ürəyinizin səsi ilə seçdiyiniz bu ali məktəbi bitirməyiniz münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm. Bir həmkarınız kimi, "aramıza xoş gəlmisiniz" deyirəm. Şübhəsiz ki, hər birinizin gələcəklə bağlı planlarınız var. Qorxmadan, çəkinmədən arzularınızın, hədəflərinizin arxasınca gedin. Özünüzə inanın. Peşənizi daim uca tutun. Zəhmətiniz sizə mənəvi zövq və firavanlıq gətirsin. Arzu edirəm ki, cəsarətli, təşəbbüskar, öz biliyinə arxayın mütəxəssislər olasınız. Hər birinizə sağlamlıq, xoşbəxtlik, firavanlıq, peşə fəaliyyətinizdə uğurlar diləyirəm".

### Xalqın sağlamlığı dövlətin ən böyük sərvətlərindən biridir

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov çıxışında Azərbaycan Tibb Universitetinin ölkədə tibb təhsilinin inkişafındakı mühüm rolunu vurğulayıb. "Xalqın sağlamlığı dövlətin ən böyük sərvətlərindən biridir" - deyən Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə təhsil, elm və səhiyyənin inkişafını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etdiyinə diqqət çəkən T.Budaqov bildirib ki, bu gün möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan səhiyyəsi





# “Məzun Günü” təntənə ilə qeyd olunub

## məzununu müstəqil həyata yola salır

keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub.

Çıxışında ölkə başçısının 2010-cu ildə Azərbaycan Tibb Universitetinin 80 illik, 2020-ci ildə 90 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlarının əhəmiyyətindən də söz açan T.Budaqov qeyd edib ki, bu addımlar mötəbər təhsil ocağına göstərilən yüksək diqqətlə yanaşı, onun perspektiv inkişafına da möhkəm zəmin yaradır: “Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən humanitar və sosial layihələr isə insanların, xüsusilə həssas təbəqədən olan soydaşlarımızın sağlamlığının qorunmasına böyük töhfədir”.

O, müasir dövrdə səhiyyə sahəsində rəqəmsal texnologiyalar, süni intellekt və innovativ yanaşmaların xüsusi əhəmiyyət daşıdığını, gənc həkimlərin daim biliklərini artırması və “Hippokrat andı”na sadiq qalmasının vacibliyini bildirib.

### Məzunlar universitetin adını daim uca tutmalıdır

Bütün tədbir iştirakçılarını salamlayaraq məzunları və onların valideynlərini təbrik edən rektor, professor Gəray Gəraybəyli universitetin zəngin tarixi və son illərdə qazandığı uğurlardan danışıb: “Azərbaycan Tibb Universitetinin bu il 96 yaşı tamam olur. Çox böyük və zəngin tarixə malik bu qocaman tədris ocağına ölkə rəhbərliyinin həmişə xüsusi qayğısı və diqqəti olub. Həkimlik peşəsini həmişə yüksək qiymətləndirən Ulu Öndər doğma universitetimizdə iki dəfə olmuş, proqram xarakterli tarixi çıxışlar etmişdi. Ulu Öndərin layiqli davamçısı, möhtərəm prezidentimiz İlham Əliyev, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva da universitet klinikalarının təməlqoyma və açılış mərasimlərində iştirak edib və professor-müəllim heyəti ilə görüşüblər. Biz bu gün də cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğı və diqqətini yaxından hiss edirik”.

Göstərilən etimadı universitet kollektivinin öz əməli fəaliyyəti ilə doğrultmağa çalışdığını vurğulayan rektor bildirib ki, qocaman ali təhsil ocağı bu il 1270 məzununu müstəqil həyata yola salır. Onlardan 912-si Azərbaycan vətəndaşı, qalanları isə 11 ölkəni təmsil edən xarici tələbələrdir.

Rektor universitetdə yeni ixtisasların açıldığını, 46 magistr proqramının hazırlandığını, bir sıra proqramların artıq beynəlxalq akkreditasiyadan keçdiyini və bu istiqamətdə işlərin uğurla davam etdirildiyini söyləyib.

Çıxışının sonunda səmimi hisslərini bölüşən professor Gəray Gəraybəyli məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, onları universitetin adını daim uca tutmağa çağırıb: "Siz 6 il öncə ilk dəfə universitetin auditoriyalarına, kitabxanasına, tədris otaqlarına qədəm qoymuşdunuz. Arxada qalan bu müddətdə professor-müəllim heyətimiz daim sizin yanınızda idi. Bu illər ərzində rəngarəng həyat yaşamısız. Çətin, kədərli günləriniz də olub. Lakin tam əminəm ki, şən, emosiyalarla dolu günləriniz daha çox olub və yadda qalıb. Zaman keçdikcə, tələbəlik illərinin insan həyatında necə dərin izlər buraxdığını daha aydın hiss edəcəksiniz. Bir daha hər birinizi təbrik edir və peşəkar fəaliyyətinizdə uğurlar arzulayıram".

### Məzunlar təntənəli şəkildə and içiblər

Sonra 2026-cı il məzunlarına həkim adının verilməsi barədə rektorun əmrini oxuyan Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov statistik məlumatları açıqlayıb. Bildirib ki, “Tibb” ixtisası üzrə 760, “Stomatologiya” ixtisası üzrə 221, “İctimai səhiyyə” ixtisası üzrə 50, “Fizioterapiya və tibbi reabilitasiya” ixtisası üzrə 30, “Tibbi bacısı işi” ixtisası üzrə 30, “Əczaçılıq” ixtisası üzrə 85, “Hərbi tibb” ixtisası üzrə 24, “Hərbi stomatologiya” ixtisası üzrə 5, “Hərbi feldşer” ixtisası üzrə 65 nəfər məzun olur.

Diqqətə çatdırılıb ki, hazırda universitetimizdə yerli tələbələrlə yanaşı, 55 ölkədən - Türkiyə, İran, Hindistan, İordaniya, Suriya, İraq, Pakistan, Sudan, Rusiya Federasiyası, İraq, Yəmən, Fələstin, Misir, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Livan və digər dövlətlərdən çoxlu sayda xarici tələbə təhsil alır. Universitetimizi seçən əcnəbi vətəndaşlara professor-müəllim heyəti xüsusi həssaslıqla yanaşır, onların peşəkar həkim kimi yetişməsi üçün əllərindən gələni əsirgəmirlər.

Mərasimdə səhiyyə naziri Teymur Musayev, Nəsimi Rayon İH başçısı Tahir Budaqov və ATU-nun rektoru Gəray Gəraybəyli tərəfindən təhsilini fərqlənmə diplomu ilə başa vuran bir qrup məzuna diplomlar təqdim edilib. Daha sonra məzunlar təntənəli şəkildə həkim andı içərək, xalqımızın sağlamlığının keşiyində ləyaqətlə dayanacaqlarına söz veriblər.

I Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirən Özləm Həsənli və Türkiyə vətəndaşı Cansu Gözəl məzunlar adından çıxış edərək, təhsil aldıqları müddətdə onlardan diqqət və qayğısını əsirgəməyən rektora, dərs aldıqları müəllimlərinə, hər zaman yanlarında olan valideynlərinə, qarşılaşdıqları problemlərin vaxtında həllinə çalışan dekanlara, dekan müavinlərinə dərin təşəkkürlərini bildiriblər. Universitetdə əla qiymətlərlə oxuduqları kimi, həkimlik fəaliyyətlərində də müəllimlərinin etimadını doğrultmağa çalışacaqlarını söyləyiblər.

Məzunların çıxışlarının ardınca Azərbaycan Tibb Universitetində təhsil aldığı müddətdə ictimai fəallıqları ilə seçilmiş tələbələr mükafatlandırılıb.

### "Ən yaxşı müəllim"lər, “İlin ən yaxşı təsərrüfat işçisi” açıqlanıb

Məzunlara 6 il ərzində dərs demiş müəllimlərin zəhməti də yüksək qiymətləndirilib. Hər fakültə üzrə hazırlanan video-çarxın nümayişindən sonra məzun tələbələr arasında keçirilmiş sorğunun nəticələri elan olunub. I Cərrahi xəstəliklər kafedrasının assistenti Elman Əzimov, Təcili tibb kafedrasının assistenti Günel Sadıqova, Hərbi tibb fakültəsinin tədris şöbə rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov, Ortopedik stomatologiya kafedrasının assistenti Elmar Babayev, Fizioterapiya və tibbi reabilitasiya kafedrasının dosenti Təranə Musayeva və Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının dosenti Sevil Mehralıyeva "Ən yaxşı müəllim" adına layiq görülüblər.

Bu əlamətdar gündə əllərinin qabarı, alınlarının təri ilə doğma universitetimizdə öz evindəki kimi xidmət göstərən sadə əmək adamları da unudulmayıb. Bildirilib ki, universitet korpuslarında yaradılan şəraitə, eləcə də tələbə şəhərciyindəki səliqə-səhmana, gözəlliyə görə təsərrüfat işçilərinə borcluyuq. Həmin fədakar əməkdaşlarımızdan biri, təsərrüfat və təchizat şöbəsinin 3 saylı tədris binasının bağbanı Həsənqulu Həsənquluyevin “İlin ən yaxşı təsərrüfat işçisi” adına layiq görülməsi tədbir iştirakçıları tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Mərasimdə Hərbi tibb fakültəsinin yaranma tarixi və Vətən müharibəsində hərbi həkimlərin göstərdiyi fədakarlıqlardan da bəhs olunub. Tədbirin rəsmi hissəsi Hərbi tibb fakültəsi müdavimlərinin sıra keçidi ilə başa çatıb.

Bayram proqramı universitetin "Şəfa" xalq çalğı alətləri və "Çinar" rəqs ansambllarının maraqlı çıxışları, həmçinin qonaq müğənnilərin ifaları ilə davam edib.

**Arif MƏMMƏDLİ**





# Universitetimiz beynəlxalq əlaqələrini genişləndirir

## Növbəti əməkdaşlıq memorandumu Türkiyənin Atlas Universiteti ilə imzalanıb



Türkiyənin Atlas Universitetinin (AU) rektoru, professor Ersoy Kocabıçakın rəhbərlik etdiyi nümayəndə heyəti ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.

Görüşdə Azərbaycan və Türkiyə arasında mövcud strateji tərəfdaşlığın ali tibb təhsili sahəsində də uğurla davam etdirilməsindən söz açılıb. ATU-nun beynəlxalq əlaqələrinin daha da genişləndirilməsini prioritet xətt kimi dəyərləndirən rektor G.Gəraybəyli, xüsusilə Türkiyənin ali təhsil müəssisələri ilə qurulan əməkdaşlığın universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi tədqiqatların inkişafı və tibbi xidmət sahəsində müasir təcrübənin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qardaş ölkənin ali təhsil müəssisələri ilə çoxsaylı əməkdaşlıq müqavilələri və memorandumlar imzalanmasını da nəzərə çatdıran Gəray Gəraybəyli qeyd edib ki, bu əlaqələr iki ölkənin səhiyyə sistemləri arasında təcrübə mübadiləsini gücləndirərək, müasir tibbi texnologiyaların tətbiqi, klinik xidmətlərin keyfiyyətinin yüksəldilməsi və gələcəkdə birgə elmi-tədqiqat layihələrinin həyata keçirilməsinə imkan yaradır.

Rektor qonaqları ATU-nun institusional akkreditasiya, tədris proqramlarının isə beynəlxalq akkreditasiyadan uğurla keçməsi, növbəti beynəlxalq akkreditasiya mərhələsinə hazırlıq prosesi, universitetdə yeni ixtisas və proqram yenilənmələri üzrə fəaliyyət, Elmi Araşdırmalar Mərkəzində həyata keçirilən tədqiqatlar, universitetdə startapların inkişafının dəstəklənməsi və s. məsələlər haqda ətraflı məlumatlandırıb.

AU-nun rektoru E.Kocabıçak da Azərbaycan və Türkiyə arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin təhsil və elm sahəsində də inkişafından məmnunluğunu ifadə edib. Tədrisin keyfiyyətinin artırılması, elmi tədqiqatların inkişaf etdirilməsi və beynəlxalq təcrübənin mənimsənilməsi istiqamətində beynəlxalq əlaqələrin dərinləşdirilməsinin vacibliyinə toxunan professor, xüsusən də Azərbaycanla bu istiqamətdə münasibətlərin genişləndirilməsinə yüksək marağın olduğunu xatırladıb.

Geniş fikir mübadiləsindən sonra tərəflər arasında memorandum imzalanıb. Rektorlar - Gəray Gəraybəyli və Ersoy Kocabıçak tərəfindən imzalanan memorandum iki universitet arasında təhsil, elm, səhiyyə, innovasiya, elmi-tədqiqat sahələrində qarşılıqlı fəaliyyətin genişləndirilməsini nəzərdə tutur.

# Böyük Elmi Şuranın 2025/2026 tədris ilində sonuncu iclası keçirilib

## Buraxılış kurslarında yekun qiymətləndirmə imtahanlarının nəticələri barədə hesabatlar təqdim olunub

**İyulun 9-da Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının 2025/2026-cı tədris ilində sonuncu iclası keçirilib. Toplantını giriş nitqi ilə açan rektor, professor Gəray Gəraybəyli Elmi Şura üzvlərini salamlayaraq iclasın əsasən yekun məsələlərə həsr olunduğunu bildirib.**

Rektor gündəlikdəki məsələlərə keçməzdən əvvəl Məhkəmə təbabəti kafedrasının müdiri, professor Mənsur Bünyatovu yubileyi münasibətilə universitet kollektivi adından təbrik edib. Rektor Məhkəmə təbabəti kafedrasının universitetin nümunəvi kafedralarından biri olduğunu vurğulayaraq, burada sağlam iş mühitinin formalaşmasının professor M.Bünyatovun səmərəli fəaliyyəti nəticəsində mümkün olduğunu bildirib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra universitetimizdə 2025/2026-cı tədris ilində buraxılış kurslarında keçirilmiş yekun qiymətləndirmə imtahanlarının nəticələri, eləcə də əmək bazarının tələblərinə cavab verən gənc mütəxəssislərin hazırlanması istiqamətində universitet qarşısında duran vəzifələr müzakirə olunub.

Buraxılış kurslarında yekun qiymətləndirmə üzrə komissiyaların sədrləri – I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli və Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev hesabat məruzələri ilə çıxış ediblər.

İlk olaraq I Müalicə-profilaktika fakültəsinin buraxılış kurslarında bilik və bacarıqların yekun qiymətləndirilməsinin nəticələri barədə komissiyanın sədri, fakültə dekanı Elşad Novruzov məlumat verib.

Bildirilib ki, 2025-2026-cı tədris ilində əvvəlki illərdən fərqli olaraq həm "Müalicə işi", həm də "Tibb" ixtisasları üzrə yekun dövlət attestasiyası keçirilib. "Müalicə işi" ixtisası üzrə imtahanlar Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (OSKİ) və test mərhələlərindən ibarət olub. OSKİ Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Simulyasiya Mərkəzində, nəzəri mərhələ isə İmtahan Mərkəzində təşkil edilib. "Tibb" ixtisası üzrə yekun qiymətləndirmənin isə ilk dəfə şifahi formada aparıldığı qeyd olunub. Vurğulanıb ki, hər iki ixtisas üzrə nəticələr yüksək olub, imtahanlar tam şəffaf şəkildə keçirilib və Apellyasiya Komissiyasına heç bir müraciət daxil olmayıb.

II Müalicə-profilaktika fakültəsinin buraxılış kurslarında yekun qiymətləndirmənin nəticələri barədə komissiyanın sədri, fakültə dekanı İsrail Məhərrəmbəyli hesabatla çıxış edib.

Qeyd olunub ki, tələbələrin klinik hazırlığı dövlət standartlarına uyğun təşkil olunub. Yekun imtahanlar "Terapiya", "Cərrahiyyə" və "Mama-ginekologiya" istiqamətləri üzrə keçirilib və yüksək nəticələr



əldə edilib. Fakültə üzrə 120 məzun fərqlənmə diplomuna layiq görülüb. Bildirilib ki, imtahan prosesi ümumilikdə problemsiz keçib, yalnız bir tələbənin apellyasiya müraciəti operativ şəkildə araşdırılaraq müsbət həllini tapıb.

Daha sonra Stomatologiya fakültəsinin buraxılış kurslarında yekun qiymətləndirmənin nəticələri barədə komissiyanın sədri, fakültə dekanı Elmira Əliyeva məlumat verib. Məruzədə qeyd olunub ki, cari ildə ATU-nun Tədris Stomatoloji Klinikası yeni avadanlıq və simulyasiya otaqları ilə təchiz edilib ki, bu da tələbələrin praktik hazırlığının daha da təkmilləşdirilməsinə imkan yaradıb. Həmçinin il ərzində keçirilən səyyar stomatoloji aksiyalar çərçivəsində 8 mindən çox vətəndaşa tibbi xidmət göstərildiyi, 300 nəfərin əlavə müayinə və müalicə üçün Stomatoloji Klinikaya yönləndirildiyi bildirilib. Fakültə üzrə 221 tələbənin iki mərhələdə keçirilən yekun qiymətləndirmədə iştirak etdiyi, 11 məzunun fərqlənmə diplomuna layiq görüldüyü diqqətə çatdırılıb.

İctimai səhiyyə fakültəsinin "Fizioterapiya və tibbi reabilitasiya", "Tibb bacısı (qardaşı) işi" və "İctimai səhiyyə" ixtisasları üzrə istehsalat təcrübəsinin yekun qiymətləndirilməsinin nəticələri barədə fakültə dekanı Qalina Qəniyeva çıxış edib.

Bildirilib ki, yekun qiymətləndirmə şifahi imtahan və OSKİ/OSPİ formatında keçirilib. Ümumilikdə 109 tələbə qiymətləndirmədə iştirak edib, iştirak göstəricisi 100 faiz təşkil edib və apellyasiya müraciəti qeydə alınmayıb. Yekun nəticələrə əsasən fakültə üzrə 20 tələbə fərqlənmə diplomuna layiq görülüb.

Əczaçılıq fakültəsinin bakalavr pilləsində istehsalat təcrübəsinin yekun qiymətləndirilməsinin nəticələri barədə fakültə dekanı Fərəh Mədətli məlumat verib.

Qeyd olunub ki, yekun qiymətləndirmə "Aptek və istehsalat təcrübəsi", "Xəstəxana apteki" və "Əczaçılıq sənayesi" istiqamətləri üzrə təşkil olunub. Qiymətləndirmə şifahi imtahan və Obyektiv Strukturlaşdırılmış Praktik İmtahan (OSPİ) formatında aparılıb. Bildirilib ki, bütün istiqamətlər üzrə müvəffəqiyyət göstəriciləri yüksək olub, imtahanlar zamanı heç bir pozuntu və apellyasiya müraciəti qeydə alınmayıb.

Daha sonra Hərbi tibb fakültəsinin 2025-2026-cı tədris ili üzrə buraxılış kurslarının yekun qiymətləndirilməsinin nəticələri barədə fakültə rəisi Məharət Rzayev hesabat təqdim edib.



Məruzədə bildirilib ki, yekun qiymətləndirməyə "Hərbi tibb" ixtisası üzrə 24, "Stomatologiya" ixtisası üzrə 5, "Hərbi feldşer" ixtisası üzrə isə 65 nəfər məzun buraxılıb. "Hərbi tibb" ixtisası üzrə qiymətləndirmənin OSKİ formatında keçirildiyi, ötən illə müqayisədə cərrahiyyə və hərbi səhra terapiyası fənləri üzrə keyfiyyət göstəricilərinin 100 faizə çatdığı qeyd olunub. Bildirilib ki, Hərbi tibb fakültəsini ümumilikdə 94 kursant müvəffəqiyyətlə bitirib.

Müzakirələrin yekununda çıxış edən rektor Gəray Gəraybəyli bildirib ki, ötən il Elmi Şurada qəbul olunan qərarlara uyğun olaraq 2025-2026-cı tədris ilində buraxılış kurslarında yeni, praktik yönümlü yekun qiymətləndirmə modeli pilot layihə kimi uğurla tətbiq olunub. Rektor qeyd edib ki, universitetdə ilk dəfə olaraq dövlət attestasiya komissiyaları əvəzinə universitetdaxili yekun qiymətləndirmə komissiyaları fəaliyyət göstərib və bu model tələbələrin nəzəri bilikləri ilə yanaşı, praktik bacarıqlarının da obyektiv qiymətləndirilməsinə imkan yaradıb.

Professor Gəray Gəraybəyli vurğulayıb ki, yeni qiymətləndirmə formatı tələbələr tərəfindən müsbət qarşılanıb. Bununla yanaşı, qiymətləndirmə prosesində səsləndirilən təkliflərin nəzərə alınacağını və sistemin növbəti illərdə daha da təkmilləşdiriləcəyini bildirib. Rektor imtahanların yüksək səviyyədə təşkilini təmin edən tədris işləri üzrə prorektorluğa, fakültə rəhbərlərinə, kafedra müdirlərinə, professor-müəllim heyətinə, Tədris Departamentinin əməkdaşlarına və universitet klinikalarının kollektivlərinə təşəkkürünü çatdırıb.

Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov bildirib ki, universitetdə tədris olunan 200-dən çox fənn proqramına yenidən baxılıb, magistratura səviyyəsində ixtisaslaşmaların sayı artırılıb, bir sıra yeni ixtisaslar üzrə tədris proqramları hazırlanıb və Simulyasiya Mərkəzində klinik bacarıqların tədrisinin genişləndirilməsi nəzərdə tutulub. Daha sonra Elmi katib Rəşad Talışinski 2026-2027-ci tədris ili üzrə universitetin iş planını təqdim edib. Azərbaycan Tibb Universitetinin 2026-2027-ci tədris ili üzrə tədris planları və iş planı müzakirə olunaraq təsdiqlənib.

Hesabatlar yekunlaşdıqdan sonra gündəlikdə duran digər məsələlərə baxılıb.

Akkreditasiya Komissiyasının yekun hesabatında əksini tapan tövsiyə və göstərişlərin icrası, Elmi Tədqiqatların İdarə Olunması Departamenti, Doktorantura və Dissertantura şöbəsi, Hüquq şöbəsi, Data Analitika və Süni İntellekt laboratoriyasının, eləcə də Elektron Kitabxananın əsasnamələri müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib. Həmçinin Rezidentura və magistratura şöbəsinin bazasında Rezidentura və Magistratura Departamentinin yaradılması təsdiqlənib.

Bundan başqa, Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi, Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu və vətəndaş Malik Abbasov tərəfindən hazırlanmış dərslik, dərs vəsaiti, metodik vəsait, klinik protokol və monoqrafiyaların nəşrinə razılıq verilib.

İclasın sonunda universitetimizin rəhbəri, professor Gəray Gəraybəyli Elmi Şura üzvlərinə tədris ili ərzində göstərdikləri səmərəli fəaliyyətə görə təşəkkürünü bildirib, kollektivə mənalı istirahət arzulayıb və sentyabr ayında yenidən görüşmək ümidi ilə iclası bağlı elan edib.

**Aytac ƏSƏDOVA**

**İctimai səhiyyə fakültəsinin təşkilatçılığı ilə “İctimai səhiyyə: sağlam cəmiyyətə aparan yol” adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Tədris işləri üzrə prorektor, professor Anar Ağayev bildirib ki, görüşün əsas məqsədi İctimai səhiyyə fakültəsinin elmi və tədris potensialını universitet ictimaiyyətinə daha yaxından tanıtmaq, fakültələrarası əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdirmək və birgə fəaliyyət imkanlarını genişləndirməkdir.**

# “İctimai səhiyyə: sağlam cəmiyyətə aparan yol”



Prorektor qeyd edib ki, İctimai səhiyyə fakültəsi universitetin gənc fakültələrindən biri olsa da, qısa müddət ərzində tibb bacılığı, fizioterapiya və magistratura proqramları üzrə yüksəkixtisaslı mütəxəssis hazırlığı, müasir təhsil metodlarının tətbiqi və multidissiplinar əməkdaşlığın inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edib.

Professor vurğulayıb ki, müasir səhiyyə sistemi yalnız bir ixtisasın fəaliyyəti ilə məhdudlaşmır. Keyfiyyətli səhiyyə xidmətinin göstərilməsi həkimlərin, tibb bacılarının, fizioterapevtlərin, ictimai səhiyyə mütəxəssislərinin və digər səhiyyə işçilərinin vahid komanda şəklində fəaliyyətini tələb edir. Onun sözlərinə görə, fakültələr və kafedralar arasında əməkdaşlığın genişləndirilməsi birgə tədris proqramlarının, elmi tədqiqatların və innovativ layihələrin həyata keçirilməsi üçün yeni imkanlar yaradır.

Tədbir çərçivəsində İctimai səhiyyə fakültəsinin nəzdində fəaliyyət göstərən kafedraların elmi, tədris və praktik fəaliyyəti elmi-maarifləndirici multimedia təqdimatları formatında nümayiş etdirilib. Təqdimatları rezident Aytac Cəfərli və fakültənin III kurs tələbəsi Aysu Danyalova aparıblar.

Tədbir zamanı Tibbi və bioloji fizika kafedrasının müdiri, dosent İsmayıl Qafarov müasir tibdə süni intellekt, data analitikası və riyazi modelləşdirmənin rolu barədə çıxış edib. Kafedra müdiri bildirib ki, müasir tibbin əsas hədəflərindən biri sağlamlıqla xəstəlik arasındakı sərhədi mümkün qədər erkən müəyyənləşdirməkdir. Onun sözlərinə görə, hər bir mürəkkəb sistem çökməzdən əvvəl müəyyən siqnallar verir və həmin siqnalların vaxtında müəyyən edilməsi xəstəliklərin inkişafının, bəzi hallarda isə ölüm riskinin qarşısının alınmasına kömək edə bilər.

# Ümumdünya Tütünsüz Gününə həsr olunmuş konfrans keçirilib

**Azərbaycan Tibb Universiteti və Azərbaycan Stomatoloji Assosiasiyasının (ASA) birgə təşkilatçılığı ilə Stomatoloji Tədris Klinikasında 31 May – Ümumdünya Tütünsüz Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib.**

Konfransı ASA-nın prezidenti, Uşaq stomatologiyası kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Rəna Əliyeva açıb. Professor R.Əliyeva çıxışında bildirib ki, Azərbaycanın müstəqillik illərində səhiyyə sistemində, o cümlədən stomatologiya sahəsində mühüm islahatlar həyata keçirilib. Bu islahatların uğurla davam etdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və peşəkar fəaliyyətin əlaqələndirilməsi məqsədilə 1997-ci ildə Azərbaycan Stomatoloji Assosiasiyası yaradılıb. Professor qeyd edib ki, Assosiasiya 1998-ci ildən dünyanın 150-dən çox ölkəsinin stomatoloji qurumlarını birləşdirən Ümumdünya Stomatoloqlar Federasiyasının tamhüquqlu üzvüdür. Assosiasiya 2005-ci ildən Avropa regional stomatoloji qurumunda da təmsil olunur. Ümumdünya Tütünsüz Gününə həsr olunmuş tədbir ilk dəfə Federasiyanın təşəbbüsü ilə keçirilib və hazırda ənənəvi olaraq davam etdirilir.

R.Əliyeva vurğulayıb ki, Assosiasiya 2002-ci ildən ölkənin stomatologiya sahəsində yeganə ixtisaslaşmış elmi nəşri olan "Qafqazda stomatoloji yeniliklər" jurnalını nəşr edir və bu jurnal uzun illərdir stomatoloqlar üçün mühüm elmi informasiya mənbəyi rolunu oynayır. Çıxışının sonunda professor stomatologiya sahəsində beynəlxalq əməkdaşlığın və elmi təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edərək bildirib ki, belə konfranslar müasir bilik və yeniliklərin paylaşılmasına, stomatoloji xidmətin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.






Sonra Azərbaycan Tibb Universitetinin Doktorantura və dissertantura şöbəsinin müdiri, Terapevtik stomatologiya kafedrasının professoru Rizvan Məmmədov çıxış edərək Azərbaycan Stomatoloji Assosiasiyasının ölkədə stomatologiyanın inkişafına mühüm töhfələr verdiyini bildirib. O qeyd edib ki, professor Rəna Əliyevanın rəhbərliyi ilə hər il elmi-praktik konfranslar, maarifləndirici tədbirlər və profilaktik aksiyalar keçirilir, beynəlxalq stomatoloji yeniliklər ölkəmizə gətirilərək yerli mütəxəssislərlə paylaşılır.

R.Məmmədov diqqətə çatdırıb ki, siqaret və digər tütün məhsullarından istifadə bu gün cəmiyyətin sağlamlığı üçün ən ciddi risk amillərindəndir. Onun sözlərinə görə, bu zərərli vərdişlə mübarizə yalnız tibb işçilərinin deyil, bütövlükdə cəmiyyətin ümumi vəzifəsidir. O cümlədən elektron siqaretlər və digər alternativ tütün məhsulları da təhlükəsiz deyil və ürək-damar, onkoloji, tənəffüs sistemi, ağız boşluğu xəstəliklərinin, eləcə də immun sisteminin zəifləməsinin əsas səbəblərindən biri hesab olunur.

Daha sonra Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosentləri Məhəmməd Davudov və Lalə Quliyeva, ATU-nun Uşaq stomatologiyası kafedrasının dosentləri Gülşən Zeynalova və Fəridə Yaqubova mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

Tədbirdə Elmi işlər üzrə prorektor, professor Məlahət Sultan və Tərbiyə işləri üzrə prorektor Mahir Səfərov da iştirak ediblər.



# Əməkdaşımız üç beynəlxalq sertifikasiya proqramını başa vurub

İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri, dosent Aygün Babayeva üç nüfuzlu beynəlxalq sertifikasiya proqramını uğurla başa vurub. Hər bir proqram üzrə yekun imtahanlarını tamamlayan əməkdaşımız Kolumbiya Universitetinin (Nyu-York) Qlobal İqlim və Səhiyyə Təhsili Konsorsiumu (GCCHE – Vaşinqton Universiteti) və Sağlamlıq Metrikası və Qiymətləndirilməsi İnstitutunun (IHME) sertifikatlarına layiq görülüb.

"Xəstəliklərin qlobal yükünə giriş" (GBD) kursu üzrə sertifikat sağlamlıq tendensiyalarının kəmiyyət baxımından qiymətləndirilməsi üçün zəruri olan konseptual çərçivə, əsas metrikalar və analitik strategiyaların mənimsənilməsini ehtiva edir. Bu təcrübə Yaxşı Səhiyyə və Rifah (DİM 3), eləcə də Məqsədlər Üçün Tərəfdaşlıq (DİM 17) üçün mühüm əhəmiyyət daşıyır.

"İqlim və səhiyyə təbabəti: klinik təlim proqramı" iqlim təsirlərinin tibb kurikulumlarına inteqrasiya olunması üçün professor-müəllim heyətini hazırlamaqla Keyfiyyətli Təhsili (DİM 4) dəstəkləyir. Proqramın səhiyyənin dekarbonizasiyasına yönəlməsi Sərfəli və Təmiz Enerji (DİM 7) məqsədinə uyğundur, mamalıq-ginekologiya və gender-spesifik təbabət üzrə sessiyalar isə Gender Bərabərliyini (DİM 5) dəstəkləyir.

Nəhayət, A.Babayeva regional böhranların aradan qaldırılması istiqamətində "Şərqi Aralıq dənizi iqlim və səhiyyə cavab tədbirləri" kursunu uğurla başa vurub. 11 həftəlik proqram İqlim Dəyişikliyinə Qarşı Mübarizəyə (DİM 13) yönəlib və mühüm regional problemləri əhatə edib.

Qeyd edək ki, üçqat sertifikasiya Qlobal Məqsədlərə hərtərəfli sadiqliyin göstəricisidir. Bu təcrübə səhiyyə sisteminin davamlılığının gücləndirilməsi və gələcək nəsil mütəxəssislərin iqlim dəyişikliyi, ictimai səhiyyə və iqtisadi rifahın mürəkkəb kəsişmələrində fəaliyyətə hazırlanmasında mühüm rol oynayacaq.

# Yarışlarda fərqlənən tələbələr və məşqçilər təltif olunub

## Bəzi növlər üzrə medal sayında hətta idman təhsil müəssisələrini üstələyirik

**Müxtəlif idman yarışlarında yüksək nəticələr əldə etmiş tələbə-idmançılar və onların məşqçi-müəllimləri ilə görüş keçirilib. Görüşdə Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov tələbələri qazandıqları uğurlara görə təbrik edib, onların nailiyyətlərinin universitetin nüfuzunun yüksəlməsinə töhfə verdiyini vurğulayıb.**



Prorektor qeyd edib ki, idmanda uğur qazanmaq böyük iradə, səbr və uzunmüddətli zəhmət tələb edir: “İnsanlar müxtəlif peşələrə təhsil almaqla yiyələnə bilərlər. Lakin idmanda yüksək nəticələr əldə etmək üçün illərlə çalışmaq, kiçik yaşlardan hazırlıq keçmək lazımdır. Sizin uğurlarınız bizi sevindirir və qürurlandırır”.

“Təbib” Tədris İdman Mərkəzinin müdiri, əməkdar məşqçi Qələndər Aslanov çıxışında bildirib ki, 2025-2026-cı tədris ili ərzində ATU tələbələri müxtəlif idman növləri üzrə keçirilən yarışlarda uğurla çıxış edərək çoxsaylı medal və kuboklar qazanıblar. Onun sözlərinə görə, bəzi tələbələr bir neçə yarışda iştirak edərək 6-8 medal əldə edib, bəziləri isə 42 kilometrlik marafon məsafəsini uğurla qət edib.

Q.Aslanov universitetin voleybol komandasının uğurunu xüsusi qeyd edərək bildirib ki, Zəfər Festivalı layihəsi çərçivəsində təşkil olunan yarışlarda ATU komandası 17 komanda arasında çempion olub. O vurğulayıb ki, Bakıda yerləşən 30 ali təhsil müəssisəsinin və 911 iştirakçının cəlb olunduğu festivalda ATU komandası 8 idman növü üzrə komanda hesabında birinci yerə layiq görülüb.

Mərkəzin direktoru tələbə-idmançı İlhamə xanımın fəaliyyətini də yüksək qiymətləndirib. Bildirib ki, o, idman yarışlarında iştirak etməklə yanaşı, tədbirlər zamanı ilkin tibbi yardım qrupunda həkim kimi də xidmət göstərir.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov da tələbələri təbrik edərək onların həm təhsildə, həm də idmanda qazandıqları nailiyyətlərin təqdirəlayiq olduğunu bildirib: “Həkimlik kimi məsuliyyətli və çətin bir sahədə təhsil almaqla yanaşı, idman yarışlarında da uğur qazanmağınız universitetimiz üçün sevindirici haldır. Bəzi idman növləri üzrə tələbələrimizin əldə etdiyi medalların sayı hətta ixtisaslaşmış idman təhsili müəssisələrinin nəticələrini üstələyir”.

Sonda müxtəlif idman növləri üzrə yarışlarda fərqlənən 16 tələbə-idmançıya və onların uğurlarında böyük əməyi olan 5 nəfər məşqçi-müəllimə fəxri diplomlar, medallar təqdim olunub.



## Nümayəndə heyətimiz Ankara Universitetində işgüzar səfərdə olub

**Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti (fakültənin əməkdaşları - dosent Şəhla Yusubova, dosent Hənifə Musayeva) Türkiyənin Ankara Universitetində (AU) işgüzar səfərdə olub.**

Rektor, professor Necdet Ünüvarla görüşdə AU-nun Diş həkimliyi fakültəsində elmi-pedaqoji fəaliyyətlə tanışlıqla bərabər, beynəlxalq stomatologiyanın aktual problemləri, o cümlədən qlobal miqyasda bu sahədə ən son tibbi texnologiyaların, elmi yeniliklər və beynəlxalq tədris standartlarının tətbiqi və s. məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdən sonra əməkdaşlarımız fakültənin klinik bazası, elmi-tədqiqat infrastrukturu, tədris prosesi ilə yaxından tanış olublar.

Qeyd edək ki, iki universitet arasında səmərəli əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və inkişafını tənzimləyən bir neçə mühüm saziş və memorandum mövcuddur.




## Qırğızıstanda uşaq kardiologiyasının aktual məsələləri müzakirə edilib

**Universitetimiz BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinə (DİM) nail olunması istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirir. Bu baxımdan, ana-uşaq sağlamlığı, ictimai səhiyyə, icma sağlamlığı, sağlam həyat tərzi, profilaktik tibb, sağlamlığın təşviqi üzrə müvafiq tədbirlər daim diqqət mərkəzindədir.**

Növbəti belə bir addım DİM 3 - Sağlamlıq və rifah və DİM 17 - Məqsədlər naminə tərəfdaşlıq istiqamətləri üzrə atılıb. Belə ki, ATU Qırğızıstan Respublikasında keçirilən "İssık-Kul sahilində uşaq ürəyi: nailiyyətlər və perspektivlər" mövzusuna həsr olunmuş II Beynəlxalq konqresdə təmsil olunub.

Tədbirdə Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) sədri, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, t.ü.f.d. Təranə Tağızadə, həmin kafedranın dosenti, t.ü.f.d. Fəxriyyə Məmmədova və Yoluxucu xəstəliklər kafedrasının dosenti, t.ü.f.d. Samir Məmmədov iştirak ediblər.

Konqresə, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan, Belarus, Rusiya, Almaniya və digər ölkələrdən olan uşaq kardiologiyası, uşaq ürək-damar cərrahiyyəsi, aritmologiya, pediatriya, neonatologiya və anesteziologiya sahələrinin aparıcı mütəxəssisləri qatılıblar. Kardiologiya, kardiocərrahiyyə və pediatriyanın aktual məsələlərinin müzakirə olunduğu bölmə iclaslarında APA-nın üzvləri olan həkimlərimiz klinik halları müzakirə edib, xarici həmkarları ilə təcrübə mübadiləsi aparıb və beynəlxalq peşəkar əlaqələrini genişləndiriblər.

Konqres çərçivəsində Türkiyə, Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Özbəkistandan olan nümayəndələrin iştirakı ilə Türk Dünyası Pediatrlarının II Qurultayı da baş tutub. Qurultayda T.Tağızadə "Azərbaycanda uşaq brusellyozunun aktual problemləri" mövzusunda məruzə edərək, xəstəliyin erkən diaqnostikası və müasir müalicə üsullarını diqqətə çatdırıb. "Nadir pediatrik xəstəliklərdə süni intellekt: genom datalarından klinik qərarların dəstəklənməsinədək" adlı təqdimatında dosent F.Məmmədova nadir patologiyaların diaqnostikasında rəqəmsal texnologiyaların oynadığı roldan bəhs edib, genom məlumatlarının analizində süni intellekt alqoritmlərinin tətbiqinin həkimlərə daha sürətli və dəqiq klinik qərarlar qəbul etmək imkanı qazandırdığını bildirib.

Sonra "Uşaqlarda viral B və C hepatitlərinin müalicəsinə müasir yanaşmalar" mövzusunda çıxış edən dosent S.Məmmədov uşaqlarda xroniki viral hepatitlərin müalicəsində son illərdə tətbiq olunan effektiv terapevtik protokollar haqda danışıb.

# Rezidentura və magistratura təhsilində mühüm yeniliklər

## İlhamə Mustafayeva: Səhiyyənin müxtəlif sahələri üzrə daha dərin bilik və bacarıqlara malik mütəxəssislər hazırlanacaq

**Universitetimizin Rezidentura və magistratura şöbəsi müasir səhiyyənin tələblərinə uyğun yüksəkixtisaslı həkim-mütəxəssislərin, elmi-pedaqoji və digər peşəkar kadrların hazırlanması istiqamətində fəaliyyətini uğurla davam etdirir.**



Şöbənin müdiri, dosent İlhamə Mustafayeva "Təbib" qəzetinə açıqlamasında bildirib ki, əsas məqsəd müasir səhiyyə sisteminin ehtiyaclarına cavab verən, peşəkar bilik və bacarıqlara, analitik düşüncə, yüksək etik dəyərlər və elmi-tədqiqat vərdişlərinə malik mütəxəssislər hazırlamaqdır. Onun sözlərinə görə, bu məqsədlə həm rezidentura, həm də magistratura səviyyəsində tədris prosesi mütəmadi olaraq yenilənir, təhsil proqramları beynəlxalq təcrübəyə uyğunlaşdırılır və praktik hazırlığın keyfiyyətini yüksəldilməsi istiqamətində mühüm addımlar atılır.

İ.Mustafayeva qeyd edib ki, şöbənin fəaliyyətinin əsas istiqamətlərindən biri müasir təhsil modelinin formalaşdırılmasıdır. Bu model nəzəri biliklərlə praktik hazırlığın və elmi fəaliyyətin qarşılıqlı əlaqəsinə əsaslanır. Məhz bu yanaşma gələcək həkimlərin və səhiyyə mütəxəssislərinin peşəkar bacarıqlarının formalaşmasına, klinik düşüncələrinin inkişafına və müasir tibbin tələblərinə uyğun hazırlanmasına imkan yaradır.

Şöbə müdiri bildirib ki, 2024-cü ildə təsdiq edilmiş yeni ixtisas təsnifatı əsasında rezidentura üzrə 38 ixtisasın təhsil proqramı yenidən hazırlanıb. Magistratura səviyyəsində isə əmək bazarının və səhiyyə sisteminin ehtiyacları nəzərə alınmaqla, yeni ixtisaslaşmalar üzrə qəbul planları formalaşdırılıb. Hazırlanan proqramların əsas məqsədi müasir səhiyyənin tələblərinə uyğun peşəkar mütəxəssislərin hazırlanmasıdır.

Onun sözlərinə görə, 2026-2027-ci tədris ilindən etibarən şöbənin fəaliyyətində bir sıra mühüm yeniliklər tətbiq olunacaq. Bu yeniliklərdən biri rezidentura səviyyəsində ilk dəfə olaraq Türkiyə təcrübəsində uğurla tətbiq edilən "yandal" modelinə uyğun ixtisaslaşmalar üzrə qəbulun həyata keçirilməsidir. Bununla yanaşı, magistratura səviyyəsində də əczaçılıq, ictimai səhiyyə, fizioterapiya və tibb bacısı işi istiqamətləri üzrə yeni ixtisaslaşmaların açılması nəzərdə tutulur. Bu yeniliklər səhiyyənin müxtəlif sahələri üzrə daha dərin bilik və bacarıqlara malik mütəxəssislərin hazırlanmasına xidmət edəcək.

İ.Mustafayeva vurğulayıb ki, tədrisin keyfiyyətinin artırılması ilə yanaşı, elmi fəaliyyətin gücləndirilməsi də şöbənin əsas prioritetlərindəndir. Yeni təhsil proqramlarında elmi-tədqiqat işi daha geniş yer tutur və təhsilalanların elmi araşdırmalara cəlb olunmasına xüsusi diqqət yetirilir. Bu istiqamətdə keçirilən elmi-praktik konfranslar, seminarlar və müxtəlif layihələr gənc mütəxəssislərin tədqiqat bacarıqlarının inkişafına mühüm töhfə verir.

Dosent bildirib ki, praktik hazırlığın gücləndirilməsi məqsədilə universitetin klinik bazaları ilə əməkdaşlıq davam etdirilir, eyni zamanda beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Hazırda ATU rezidentləri dünyanın nüfuzlu universitet klinikalarında qısamüddətli rotasiya proqramlarında iştirak edir, beynəlxalq təcrübə qazanırlar. Gələcəkdə bu proqramların həm ölkədaxili, həm də beynəlxalq səviyyədə daha da genişləndirilməsi nəzərdə tutulur.

İ.Mustafayevanın sözlərinə görə, şöbənin son illərdə əldə etdiyi mühüm nailiyyətlərdən biri yeni ixtisaslaşmaların tətbiqi istiqamətində görülən hazırlıq işləri, qəbul planlarının və təhsil proqramlarının hazırlanmasıdır. Bununla yanaşı, rezidentlərin beynəlxalq elmi konfranslarda uğurlu çıxışları, xarici jurnallarda, o cümlədən yüksək reytinqli beynəlxalq nəşrlərdə məqalələrinin dərc olunması, magistrantların elmi-tədqiqat layihələrinin praktik tətbiq mərhələsinə çatdırılması görülən işlərin səmərəli nəticələrindən hesab olunur.

Sonda şöbə müdiri bildirib ki, qarşıdakı dövrdə də Rezidentura və magistratura şöbəsinin əsas məqsədi beynəlxalq standartlara uyğun təhsil mühitinin formalaşdırılması, yeni ixtisaslaşmaların tətbiqi, elmi fəaliyyətin daha da inkişaf etdirilməsidir.

**Aytac ƏSƏDOVA**

# II Pediatrik Otorinolarinqologiya konfransı keçirilib





**Tədris Cərrahiyyə Klinikasında uşaq otorinolarinqologiyasının aktual problemlərinə həsr olunmuş II Pediatrik Otorinolarinqologiya konfransı keçirilib. Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının əməkdaşı Cabbar Cəlilov iştirakçıları salamlayaraq tədbirin elmi-praktik əhəmiyyətindən danışıb.**

O, bu kimi elmi tədbirlərin müasir tibbi yanaşmaların müzakirəsi, bilik və təcrübə mübadiləsinin aparılması baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, uşaq otorinolarinqologiyası sahəsində aparılan elmi müzakirələr göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasına və pasiyentlərin daha effektiv müalicəsinə töhfə verir.

Daha sonra çıxış edən kafedra müdiri, professor Vəfa Pənahian konfransın təşkilində əməyi olan hər kəsə təşəkkürünü bildirərək, "Nəfəs bizim uşaqlar üçün xoşbəxtlikdir" fikri ilə tədbirin əsas məqsədini və əhəmiyyətini vurğulayıb.

Açılışdan sonra konfrans öz işinə başlayıb. Dosent Cabbar Cəlilov və assistent Namiq Xəlilovun moderatorluğu ilə keçirilən tədbir iki elmi panel üzrə davam edib.

Birinci panel uşaqlarda stridor probleminə həsr olunub. Panel çərçivəsində dosent Sənubər Vəliyeva "Uşaqlarda stridor: Diaqnostika və differensial diaqnostika", Elnur Əkbərov "Uşaqlarda stridor - qırtlaq patologiyaları", professor Esmira Nəsibova isə "Uşaqlarda otorinolaringoloji əməliyyatlar zamanı anestezioloji təminatın xüsusiyyətləri" mövzularında məruzələrlə çıxış ediblər.

Uşaqlarda yuxu apnoesi probleminə həsr olunmuş ikinci paneldə isə professor Aytən Məmmədbəyli "Uşaqlarda yuxu ilə əlaqəli tənəffüs pozğunluqları: Nə zaman nevroloqa müraciət edilməlidir?", PhD Xəyal Aşurəliyev "Apnoe səbəbi: Pyer-Robin sindromu", psixoloq Faida Şaxtaxtinskaya "Apnoenin psixoloji aspektləri", professor Vəfa Pənahian isə "Otorinolarinqoloji patologiyalar mənşəli apnoe" mövzularında məruzələrlə çıxış ediblər.

Qeyd edək ki, konfransın Təşkilat komitəsinin tərkibinə Sənubər Vəliyeva, Cabbar Cəlilov, assistent Namiq Xəlilov, Aytən Şıxəliyeva və Elnur Əkbərov daxil olublar.

## Əməkdaşlarımızın uğurları




Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli Tacikistanın Düşənbə şəhərində keçirilən beynəlxalq nevroloqlar konqresində iştirak edib.

O, Tacikistan Nevroloqlar Assosiasiyası "Neyron"u fəaliyyətinin 20 illiyi münasibətilə Azərbaycan Nevroloqlarının Milli Assosiasiyası və Azərbaycan Uşaq Nevroloqları Assosiasiyası adından təbrik edib, sonra isə elmi mühazirə oxuyub.

Konqresin elmi proqramında Nevrologiya kafedrasının daha 5 əməkdaşı və dissertantı da onlayn formatda məruzələrlə iştirak edib.

Tədbir çərçivəsində beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi və gələcək birgə layihələrin həyata keçirilməsi perspektivləri müzakirə olunub.

* * *



Bakıda "IAGC26" Beynəlxalq Asiya Ginekologiya Konqresi keçirilib. Böyük elmi əhəmiyyət daşıyan bu mötəbər elmi tədbir Səhiyyə Nazirliyi, İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Yell Universitetinin Tibb Məktəbinin (Yale University School of Medicine) dəstəyi ilə təşkil olunub.

Asiya ölkələrindən tanınmış alimləri, aparıcı mamalıq-ginekologiya mütəxəssislərini və səhiyyə sahəsinin nüfuzlu nümayəndələrini bir araya gətirən konqresdə Azərbaycan Tibb Universiteti də uğurla təmsil olunub. Belə ki, Tədris Cərrahiyyə Klinikasının həkim-ginekoloqları sessiyalarda həm moderator, həm də məruzəçi qismində iştirak edərək öz elmi-praktik təcrübələrini beynəlxalq auditoriya ilə bölüşüblər.

Tədbir çərçivəsində reproduktiv sağlamlıq, minimal invaziv cərrahiyyə, yüksək riskli hamiləliklər və ginekoloji patologiyaların idarə olunmasına dair aktual mövzular ətrafında geniş müzakirələr aparılıb.

I Mamalıq və ginekologiya kafedrasının dosenti Sevinc İsmayılova "Hamiləlik dövründə uşaqlıq boynu displaziyaları", II Mamalıq və ginekologiya kafedrasının assistenti, şöbə müdiri Turab Canbaxışov "Miomaektomiyanın hamiləlik nəticələrinə təsiri", həmin kafedranın dosenti Ellada Sarıyeva isə "Ginekologiyada genital travma" mövzusunda məruzələrlə çıxış ediblər.

IAGC ginekologiya sahəsi üzrə ən son elmi-praktik yeniliklərin, müasir diaqnostik və müalicə yanaşmalarının müzakirə olunduğu mühüm platformadır.

* * *




Tibb və sağlamlıq elmləri təhsili kafedrasının baş müəllimi, II Müalicə-profilaktika fakültəsinin dekan müavini Bənövşə Hüseynova İtaliyanın Bolonya şəhərində keçirilmiş "Beynəlxalq Uşaq Tənəffüs Xəstəlikləri Cəmiyyəti-2026" (İNSPiRED) adlı beynəlxalq konqresdə iştirak edib. Uşaqlarda tənəffüs sağlamlığının inkişafına həsr olunmuş qlobal, çoxsahəli şəbəkə olan İNSPiRED əməkdaşlıq, təhsil və bərabərlik prinsipləri üzərində qurularaq, uşaq pulmonoloqları, tədqiqatçıları, müttəfiq səhiyyə mütəxəssisləri və siyasətçiləri bir araya gətirir.

2026-cı ildə də inklüzivlik və qlobal bərabərliyi dəstəkləyən konqres uşaq ağciyər xəstəlikləri ilə bağlı elm, klinik qayğı və ictimai səhiyyə sahəsindəki ən son nailiyyətləri bölüşmək üçün dinamik bir platforma rolunu oynayıb.

60-dan çox ölkədən 700-dən artıq nümayəndənin qatıldığı konqresdə əməkdaşımız iki poster təqdimatı ilə çıxış edib.

* * *

Əməkdaşlarımızın həm yerli, həm də xarici ölkələrin alimləri ilə birgə yerinə yetirdikləri tədqiqat işlərinin nəticələri "Scopus" və "Web of Science" bazalarında indekslənən "BioNanoScience", "Veterinary Medicine International", "Frontiers in Chemistry" adlı jurnallarda çap olunub.

Belə ki, Sitologiya, embriologiya və histologiya kafedrası və Elmi Araşdırmalar Mərkəzinin Elektron mikroskopiya şöbəsində ölkənin müxtəlif ərazilərindən əldə olunan termofil bakteriyalara stress şəraitində $Fe_3O_4$ nanohissəciklərinin biomineralizasiyası, sahib orqanizmə ciddi zərər verən parazit qurdlara qarşı dəmir nanohissəciklərinin antihelmint xüsusiyyətləri, nano-silikon hissəcikləri və çoxqatlı karbon nanoborular ilə doldurulmuş yüksək təsirli polistirol nanokompozitlərinin struktur xüsusiyyətlərinin araşdırılması ilə elmi işlər aparılıb.

Məqalələrin hər üçündə əməkdaşlarımızdan professor Eldar Qasımov və dosent Fuad Rzayev, ayrı-ayrı məqalələrdə isə R.Allahverdiyev, M.Babayeva, T.Huseynova, S.Allahverdiyeva, S.İsrafilova, N.Quliyeva, M.Seyidbəyli həmmüəllif olublar.

Sözügedən tədqiqatlarda ATU ilə yanaşı, həm yerli (BDU, Canlı Sistemlərin Tədqiqi İnstitutu, Sumqayıt Dövlət Universiteti, Fizika İnstitutu), həm də tanınmış xarici (Kent Dövlət Universiteti (ABŞ), Ege Universiteti (Türkiyə), Tokat Gaziosmanpaşa Universiteti (Türkiyə), Nüvə Fizikası Milli İnstitutu (İtaliya), Loya Texniki Universitet (Ekvador), Mianvali Universiteti (Pakistan), Kral Səud Universiteti (Səudiyyə Ərəbistanı), Yeungnam Universiteti (Koreya Respublikası)) alimlər iştirak ediblər.

# Ağır dərəcəli onurğa əyriliyi cərrahi yolla aradan qaldırılıb



Tədris Cərrahiyyə Klinikasında 13 yaşlı qızın üzləşdiyi ağır dərəcəli onurğa əyriliyi (skolioz) uğurlu cərrahi yolla aradan qaldırılıb. Əməliyyat klinikanın Neyrocərrahiyyə şöbəsinin müdiri, dosent Cəmil İskəndərov tərəfindən icra olunub. Pasiyentin müayinəsi zamanı onurğada 45 dərəcədən artıq skolioz aşkarlanıb. Bu yaşadək tətbiq olunan konservativ müalicə üsulları, o cümlədən korset müalicəsi istənilən nəticəni verməyib. Onurğa əyriliyinin proqressiv şəkildə artması nəzərə alınaraq cərrahi müdaxilə qərarı qəbul edilib.

Əməliyyat zamanı müasir neyromonitorinq sistemindən istifadə olunub. Bu texnologiya cərrahi müdaxilə boyunca onurğa beyni və sinir kökcüklərinin funksional vəziyyətini fasiləsiz izləməyə imkan verərək, mümkün nevroloji ağırlaşmaların qarşısının alınmasına xidmət edir.

Təxminən dörd saat davam edən əməliyyat uğurla başa çatıb. Cərrahi müdaxilə nəticəsində onurğa deformasiyası əhəmiyyətli dərəcədə korreksiya olunub, xəstənin duruşunun bərpasına və estetik görünüşünün yaxşılaşdırılmasına nail olunub.

Əməliyyatın əsas məqsədi yalnız kosmetik qüsuru aradan qaldırmaq deyil, həm də gələcəkdə əyriliyin proqressivləşməsinin qarşısını almaq və pasiyentin həyat keyfiyyətini yüksəltmək olub.

Həkim bildirib ki, son illərdə uşaq və yeniyetmələr arasında skolioz halları daha tez-tez müşahidə olunur. Bu səbəbdən valideynlər övladlarında çiyinlər arasında hündürlük fərqi, onurğada əyrilik, kürək nahiyəsində çıxıntı və ya duruş pozğunluğu gördükdə, vaxt itirmədən mütəxəssisə müraciət etməlidirlər. Erkən diaqnostika və vaxtında başlanılan müalicə bir çox hallarda xəstəliyin ağırlaşmasının və geniş cərrahi müdaxiləyə ehtiyacın qarşısını ala bilir.

## Tələbə dekan

# Uğur yalnız yüksək bal toplamaqla ölçülmür

**Əczaçılıq fakültəsində təhsil alan Teymur Rəhimov qısa müddətdə həm elmi fəaliyyəti, həm də tələbə liderliyi ilə seçilən gənclərdən birinə çevrilib. Hazırda fakültənin tələbə dekanı kimi fəaliyyət göstərən 4-cü kurs tələbəsi T.Rəhimov, universitet həyatını yalnız təhsil çərçivəsində deyil, həmçinin inkişaf, təşəbbüs və məsuliyyət müstəvisində dəyərləndirən gənclərdəndir.**




25 avqust 2005-ci ildə anadan olan T.Rəhimov hələ məktəb illərindən məqsədyönlülüyü və intizamlı olması ilə fərqlənib. Qarşısına qoyduğu hədəflərə doğru ardıcıl şəkildə irəliləmək onun həyat prinsiplərindən birinə çevrilib. Bu xüsusiyyətlər qəbul imtahanında əldə etdiyi 530 bal nəticəsində də öz təsdiqini tapıb. Əczaçılıq fakültəsini seçməsi də təsadüfi olmayıb. Onun üçün bu sahə yalnız peşə deyil, insan sağlamlığına birbaşa təsir edən strateji istiqamətdir. Dərman vasitələrinin hazırlanması, keyfiyyəti və təhlükəsizliyi kimi məsələlərə marağı bu seçimi əsaslandırıb.

ATU-nu güclü akademik ənənələri və peşəkar kadr hazırlığı ilə seçilən nüfuzlu ali təhsil müəssisəsi kimi dəyərləndirən Teymur üçün bu seçim gələcək hədəflərinə aparan yolun başlanğıcıdır.

Onun tələbəlik həyatında diqqət çəkən əsas məqamlardan biri elmi fəaliyyətə erkən qoşulmasıdır. Hələ 1-ci kursdan Tələbə Elmi Cəmiyyətində aktiv iştirak edən Teymur ilk elmi işi ilə akademik mühitə daxil olub. Bu fəaliyyət onun düşüncə tərzində yeni mərhələnin başlanğıcını qoyub. Elmi araşdırma aparmaq, məlumatları təhlil etmək və auditoriya qarşısında çıxış etmək bacarıqları onun inkişafında mühüm rol oynayıb və zamanla bu fəaliyyət konkret nəticələrə gətirib çıxarıb.

T.Rəhimov tələbə dekan vəzifəsini formal status deyil, məsuliyyətli missiya kimi qəbul edir. O, tələbələrin maraqlarını təmsil etməyi, onların problemlərinə həssas yanaşmağı və fakültədə sağlam tələbə mühitinin formalaşmasına töhfə verməyi əsas prioritet hesab edir. Onun yanaşmasına görə, tələbə dekan tələbələrlə rəhbərlik arasında körpü rolunu oynayan, təşəbbüsləri düzgün istiqamətləndirən bir fiqurdur.

Teymur tələbə həyatını yalnız dərs prosesi ilə məhdudlaşdırmır. O hesab edir ki, universitet illəri gəncin həm akademik, həm sosial, həm də peşəkar baxımdan formalaşdığı ən vacib mərhələdir. Bu səbəbdən tələbələrin müxtəlif imkanlardan yararlanması, öz potensiallarını kəşf etməsi və gələcək karyeralarına hazırlaşması üçün təşəbbüslərlə çıxış edir.

Onun fəaliyyətində diqqət çəkən istiqamətlərdən biri də tələbələrlə iş dünyası arasında əlaqələrin qurulmasıdır. Teymurun təşəbbüsü ilə tələbələr müxtəlif şirkətlər və müəssisələrlə daha erkən mərhələdə tanış olmaq imkanı əldə edir. Bu isə onların real iş mühitini yaxından görməsi, təcrübə qazanması və əmək bazarının tələblərini daha yaxşı anlaması baxımından mühüm əhəmiyyət daşıyır.

T.Rəhimovun liderlik anlayışı klassik çərçivələrdən kənardır. O, liderliyi insanları bir araya gətirmək, onların ideyalarına dəyər vermək və inkişaf üçün şərait yaratmaq kimi qəbul edir. Əsas məqsədi tələbələrin özlərini gələcəyin peşəkar mütəxəssisləri kimi formalaşdırmasına dəstək olmaqdır.

Teymurun tələbəlik yolu bir daha sübut edir ki, uğur yalnız yüksək bal toplamaqla ölçülmür. Əsl uğur bilikləri məqsədə çevirməkdən, imkanlardan düzgün istifadə etməkdən və cəmiyyətə faydalı olmağa çalışmaqdan ibarətdir.

**Qabil ABDULLAYEV**

# Tələbəmiz nüfuzlu müsabiqənin finalına yüksəlib

**Tələbəmiz Amin Əhmədov elm, texnologiya, biznes və sosial sahələrdə innovativ ideyası olan gənc tədqiqatçıları, tələbələri və mütəxəssisləri bir araya gətirən nüfuzlu beynəlxalq innovasiya platforması - "Falling Walls Lab Azerbaijan" müsabiqəsinin finalına yüksəlib.**




146 müraciətin daxil olduğu və yalnız 19 ən yaxşı iştirakçının seçildiyi müsabiqənin finalçısı A.Əhmədov Əczaçılıq fakültəsinin III kurs tələbəsidir. Yüksək rəqabət şəraitində keçən müsabiqəyə "Breaking The Wall of Unsafe Pharmacy Decisions" adlı layihə ilə qatılan tələbəmizin finala qədər yüksəlməsi mühüm nailiyyətdir. Bu nəticə maraqlı ideya, ciddi hazırlıq və ekspertlər qarşısında layihənin uğurla təqdimatının göstəricisidir.

# Müəllim və tələbələr üçün Nabranda istirahət təşkil edilib



**Universitetimizin Həmkarlar İttifaqı Komitəsi əməkdaşların asudə vaxtlarının səmərəli təşkili istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır.**

Bu istiqamətdə növbəti tədbir I Müalicə-profilaktika fakültəsinin 40 nəfərdən ibarət professor-müəllim heyəti və ictimai fəallığı ilə seçilən tələbələr üçün reallaşdırılıb. Belə ki, ATU-nun nəzdində fəaliyyət göstərən və Nabranda yerləşən "Təbib" istirahət-sağlamlıq mərkəzində birgünlük istirahət təşkil olunub.



Qeyd edək ki, universitet əməkdaşlarının hərtərəfli istirahətini təmin etmək məqsədilə yaradlan "Təbib" istirahət mərkəzi 1994-cü ildən Həmkarlar İttifaqı Komitəsinin sərəncamına verilib.

Hazırda hər il 500 nəfərə yaxın professor-müəllim heyəti, texniki işçi və onların ailələri, o cümlədən tələbələr mərkəzdə istirahət edə bilir.

# Karateçi tələbələrimiz Nabranda təlim-məşq toplanışında olub

**"Təbib" Tədris İdman Mərkəzinin təşkilatçılığı ilə karate bölməsinin tələbə-idmançıları üçün təlim-məşq toplanışı keçirilib.**



Universitetimizin Nabranda yerləşən "Təbib" istirahət-sağlamlıq düşərgəsində təşkil olunan və iki gün davam edən əsas təlim proqramı tələbə-idmançıların fiziki hazırlığının artırılması, texniki və taktiki bacarıqlarının təkmilləşdirilməsi, idman intizamının möhkəmləndirilməsi və komanda ruhunun inkişaf etdirilməsi məqsədi daşıyıb. "Təbib" Tədris İdman Mərkəzinin müdiri, 5-ci dan qara kəmər ustası Qələndər Aslanovun rəhbərliyi ilə baş tutan toplanışda Mərkəzin müxtəlif idman istiqamətlərini təmsil edən mütəxəssisləri – Əməkdar məşqçi Ələkbər Əliavsarov və respublika dərəcəli hakim Şükür Bayramov da iştirak ediblər.

Təlim məşqləri düşərgənin əlverişli təbii şəraitindən istifadə edilməklə həm dəniz kənarı, həm də düşərgə ərazisində keçirilib. Açıq havada təşkil olunan məşqlər tələbə-idmançıların fiziki hazırlığının inkişafına, dözümlülük və çeviklik qabiliyyətlərinin artırılmasına, eləcə də idmana olan maraqlarının daha da güclənməsinə xidmət edib.

Təlimlər zamanı karate idman növünün əsas texniki elementləri, fiziki hazırlıq çalışmaları, döyüş bacarıqları və idmançının psixoloji hazırlığı ilə bağlı müxtəlif məşğələlər yerinə yetirilib.

Tədbir çərçivəsində tələbə-idmançıların hazırlıq səviyyəsinin qiymətləndirilməsi məqsədilə kyu test kəmər dərəcə imtahanı da keçirilib. İmtahanlarda iştirak edən 9 tələbə-idmançı müxtəlif kyu dərəcələri üzrə sınaqlardan uğurla keçərək növbəti mərhələyə yüksəlib və yeni kəmər dərəcələri əldə ediblər.

Təlim-məşq toplantısı çərçivəsində Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun tələbə-idmançılarla görüşü də baş tutub. Görüşdə HİK sədri onların universitetin idman şərəfini layiqincə qorumalarını, müxtəlif yarışlarda əldə etdikləri nailiyyətləri yüksək qiymətləndirərək, gənc idmançıları təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# "Hərbi psixiatriya" adlı dərs vəsaiti hazırlanıb

**Müasir hərb elmi və hərbi təbabətin təcrübəsi nəzərə alınmaqla, tələbələr və Hərbi tibb fakültəsinin rezidentləri üçün "Hərbi psixiatriya" adlı dərs vəsaiti hazırlanıb.**

Kitabın I hissəsi "Psixiatriyanın ümumi problemləri", II hissə "Ümumi psixopatologiya", III hissə "Xüsusi psixiatriya", IV hissə "Hərbi psixiatriyanın seçilmiş sualları", V hissə isə "Hərbi qulluqçuların psixi sağlamlığı" adlanır.

Dərs vəsaitində ənənəvi mövzularla yanaşı, "Hərbi-həkim və məhkəmə psixiatriya ekspertizası", "Hərbi qulluqçularda simulyativ davranış pozuntuları", "Hərb dövrünün psixi pozuntuları", "Hərbi peşə zərərlərinin təsiri nəticəsindən yaranan psixi pozuntular", "İstilik zədələnmələri nəticəsində yaranan psixi pozuntular" kimi fərqli mövzular da yer alıb. Bundan əlavə, kitabda hərbi qulluqçuların psixi sağlamlığı, sülh və müharibə dövründə psixiatriya yardımının təşkili, psixoprofilaktika və psixogigiyena məsələləri də öz əksini tapıb.

Kitabın müəllifi Hərbi tibb fakültəsinin Tibb xidmətinin təşkili və taktikası kafedrasının müəllimi, tibb üzrə fəlsəfə doktoru, istefada olan tibb xidməti polkovniki Elşad Sabir oğlu Mehdiyevdir.

Kitabdan həkim-psixiatrlar, hərbi hissə həkimləri, həkim-narkoloqlar və klinik psixoloqlar da istifadə edə bilər.




**Ümumi cərrahlıq və Radiologiya kafedraları əməkdaşlarının kəskin xolesistitlərlə bağlı birgə apardıqları elmi araşdırmalar öz müsbət nəticəsini verib.**

# İki kafedranın birgə tədqiqat işlərinə patentlər verilib

Belə ki, kəskin daşlı xolesistitin destruktiv formalarının inkişafını proqnozlaşdıran üsul işlənib hazırlanaraq klinik praktikada tətbiq edilib. Öd kisəsindəki destruktiv dəyişiklikləri vaxtında proqnozlaşdırmağa imkan verən bu ixtiraya Avrasiya Patenti alınıb. Bu patologiya ilə bağlı Avrasiya Patenti alan ikinci üsul da destruktiv xolesistitə daha erkən dövrdə diaqnoz qoymağa imkan verir.

Həmçinin bu iki kafedra əməkdaşlarının təxirəsalınmaz situasiyalada öd kisəsinin exoqrafik parametrlərindən və periferik qanın klinik analizi əsasında hematoloji inteqral indekslərdən istifadə etməklə işləyib hazırladıqları kəskin xolesistitin klinik formalarının differensial diaqnostikası üsulu da klinik praktikada özünü tam doğruldub və nəticədə Avrasiya Patenti alınıb.

Aparılmış elmi-tədqiqat işlərinin nəticəsinin bir hissəsi İtaliyanın Q2 impakt dərəcəli "Journal of Circulation Biomarkers" jurnalında dərc edilib. Eləcə də hepatobiliar cərrahlığın aktual problemi olan xoşxassəli mexaniki sarılığın klinik gedişinin proqnozlaşdırılması sahəsində aparılan elmi araşdırmaların nəticəsində yeni ixtiraya Avrasiya Patenti verilib.

Təklif olunan üsulların müəllifləri professorlar Cabbar Hacıyev, Novruz Hacıyev, Məlahət Sultan, dosentlər Vidadi Allahverdiyev, Elman Tağısoy, İsmayıl Qafarov, Şəhla Qasımova və assistent Nəcibə Eynullyevadır.

# Əməkdaşlarımızın hazırladığı fitotablet Avrasiya patenti alıb

**Azərbaycan Tibb Universiteti (ATU) əməkdaşlarının birgə elmi fəaliyyəti nəticəsində "Helicobacter pylori" infeksiyasının müalicəsi üçün təbii mənşəli xammallar əsasında, uzunmüddətli təsirə malik innovativ qastroretentiv (mədədə qalan) fitotablet hazırlanıb.**

Bu yeni əczaçılıq məhsulu mədədə uzun müddət saxlanılmaqla, bioloji aktiv maddələrin mərhələli və nəzarət olunan şəkildə azad olunmasını təmin edir. Sözügedən texnoloji üstünlük "Helicobacter pylori" infeksiyasının müalicəsində tamamilə yeni və perspektivli yanaşma hesab olunur.

Mürəkkəb və çoxmərhələli hazırlanma texnologiyası Əczaçılıq texnologiyası kafedrasının laboratoriyasında, dosent Sevil Mehrəliyevanın elmi rəhbərliyi ilə magistrant Nuranə Kapitanova tərəfindən həyata keçirilib.

Aparılmış çoxşaxəli elmi tədqiqatların fundamental nəticəsi olaraq ərsəyə gələn bu innovativ məhsul Avrasiya Patent Təşkilatı (APT) tərəfindən yüksək qiymətləndirilib və "Helicobacter pylori infeksiyasının müalicəsi üçün qastroretentiv üzən fitotablet" adlı ixtiraya Avrasiya Patenti verilib.

Mürəkkəb elmi və eksperimental mərhələlərdən ibarət olan bu patentin ərsəyə gəlməsində Elmi Araşdırmalar Mərkəzinin Farmakologiya və toksikologiya şöbəsinin müdiri Rəna Cəfərova, Farmakoqnoziya kafedrasının baş müəllimi Zeynəb Kərimova, Əczaçılıq texnologiyası kafedrasının dissertantı Bəhruz Məmmədov və Əczaçılıq texnologiyası kafedrasının baş laborantı Nigar İsmayılovanın da xidmətləri olub.

# Elmi tədqiqatlar beynəlxalq uğurla nəticələnib

**Əczaçılıq texnologiyası kafedrasında innovativ dərman çatdırılma sistemlərinin yaradılması istiqamətində aparılan elmi tədqiqatlar növbəti mühüm beynəlxalq uğurla nəticələnib.**

Kafedrada formalaşmış yeni dərman çatdırılma sistemləri elmi istiqamətinin rəhbəri, dosent Sevil Mehrəliyevanın elmi rəhbərliyi ilə magistrant Tünzalə Eyvazova tərəfindən hazırlanmış "Kuperozun müalicəsi üçün angioprotektor təsirli fitosomal gel" adlı ixtira Avrasiya Patenti alıb.

Patent Avrasiya Patent Təşkilatı tərəfindən ixtiranın yeniliyini, ixtira səviyyəsini və sənayedə tətbiq oluna bilməsini təsdiq edən fundamental ekspertiza əsasında verilib.

Hazırlanmış preparat fitosom texnologiyasına əsaslanan innovativ nanogel olub, bitki mənşəli bioloji aktiv maddələrin fosfolipid kompleksləri şəklində inkapsulyasiyası hesabına onların dəriyə nüfuzetmə qabiliyyətini (bio-nüfuz nümunəsini), bioloji mənimsənilməsini və terapevtik effektivliyini maksimum dərəcədə artırır. Unikal xüsusiyyətlərinə görə preparat kuperozun patogenetik müalicəsində perspektivli yeni nəsil dərman çatdırılma sistemi kimi səciyyələndirilir.

Mürəkkəb elmi-tədqiqat xarakteri daşıyan bu ixtiranın ərsəyə gəlməsi və xarakterizasiyasında universitetin müxtəlif strukturları və alimlərinin, o cümlədən Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Elmi Araşdırmalar Mərkəzinin Elektron mikroskopiya şöbəsinin müdiri, dosent Fuad Rzayev, EAM Farmakologiya və toksikologiya şöbəsinin müdiri Rəna Cəfərova, Farmakoqnoziya kafedrasının baş müəllimi İlhamə Cahangirova və digərlərinin də əməyi var.

## Allah rəhmət eləsin!

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın dosenti Sevda Əlizadəyə qaynanası

**Nurlana Əliyevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dosenti Əzizə Rüstəmzadəyə həyat yoldaşı

**Azad bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0013
Sayı 800